# The Interview Times.

Buraxılış No.3 Mart, 2022 Pulsuz

# Vafa Kazdal




## Biography

*ADA Universitetində Akademik İşlər üzrə Prorektor vəzifəsində çalışır. Prorektor vəzifəsindən öncə "Humanitar və dəqiq elmlər və Təhsilin idarə edilməsi" fakültələrinin Dekanı olaraq fəaliyyət göstərmişdir. İngilis dilinin filologiyası və tədrisi üzrə Azərbaycan Dillər Universitetində beş illik diplomu, İngiltərənin Warwick Universitetində magistr dərəcəsini, pedaqogika üzrə isə Azərbaycan Dillər Universitetində fəlsəfə elmləri namizədi dərəcəsini almışdır. Eyni zamanda, ABŞ dövlətinin İndiana Universitetində, Miçigan Universitetində və İngiltərənin Oxford Universitetində tədqiqat aparmaq və qısa müddətli pedaqoji fəaliyyət göstərmək üzrə müxtəlif mükafatlara layiq görülmüşdür. Ailəlidir, 2 övladı var. 13 ildən çoxdur ki, ADA Ailəsinin üzvüdür.*

**Vəfa Kazdal. Əminəm ki, tələbələrinizin 90 faizini bu sual maraqlandırır. Soyadınızın anlamı nədir?**

Bilirsiniz ki, əksər xanımlar ailə quranda yoldaşının soyadını götürür. Mənim yoldaşım isə əslən Türkiyə türklərindəndir və əlbəttə ki, ailə quranda mən onun soyadını götürdüm. Əslində fikirləşirəm ki, həmin soyad həm karyerama qeyri-adilik qatdı, həm də gördüyünüz kimi tələbələrdə maraq yaradır. Hətta Cənab Rektor Hafiz Paşayev ilə ilk görüşümüzdə o da bu sualı mənə ünvanlamışdı və əlavə olaraq məndən qızlıq soyadımı soruşmuşdu. Mən də cavabında qızlıq soyadımın "Pirverdiyeva" olduğunu demişdim. Hafiz müəllim isə qızlıq soyadımın heç də indiki soyadımnan geri qalmadığını, əksinə qulağa daha xoş səsləndiyini vurğulamışdı. O ki qaldı Kazdal soyadının mənasına, mən tam dəqiqlik ilə deyə bilmərəm, ancaq bildiyimə görə Türkiyədə belə bir dağ olub- Kaz (Qaz) dağı, və yoldaşımın ailəsinin kökləri həmin ərazidəndir.

**Xatırlayıram bir dəfə USG-də Prezident ikən bizim "scholarship" ilə bağlı layihəmiz Universitetin Senatına çıxarılmışdı və bizim çıxış axırda planlaşdırıldığından bizə vaxt çatmamışdı. Həmin zaman çox israr etdiyimizdən Hafiz müəllim təqdimat üçün bizə 3 dəqiqə vaxtın verilməsini səsverməyə qoydu və müraciət etdi ki, bu təklifin lehinə olanlar əllərini qaldırsınlar. Həmin vaxt orada ADA-nın bütün rəhbər heyəti var idi, və bizim lehimizə əlini qaldıran isə yalnız bir nəfər oldu və o da siz. Vəfa xanım hər zamanmı tələbələrinə bu cür dəstəkçi olur?**

Bəli, məncə universitetdə artıq çox bir tələbə bunu bilir, mənim hər zaman qəlbim və ürəyim tələbələr ilə döyünür . Mən fikirləşirəm ki, biz burada tələbələr üçün çalışırıq,

sözün müsbət mənasında. Təhsil ocağı tələbəyə həm xidmət göstərir, həm də dəstəkləmək üçündür və mən hər zaman tələbənin yanındayam. Xüsusilə o tələbələr ki, öz üzərində daim çalışırlar, həyatda daim öz ayaqları üzərində durmağa səy göstərirlər və hədəflərinə öz əməkləri hesabıma çatmağa çalışırlar. Lakin, tələbə məni məyus etdikdə mən çox qırılıram, təəssüf ki, belə hallar olur. Ancaq, ümumiyyətlə çalışıram hər tələbəni dəstəkləyim, hətta universitetdə belə bir qisim də var ki, mən həmişə tələbənin tərəfini tutduğum üçün mənim ilə razılaşmırlar. Xüsusi ilə də görəndə ki, tələbə haqlıdır, ona dəstək çıxmaq və şərait yaratmaq lazımdır, bu halda mən həmişə tələbənin yanındayam.

**Vəfa xanım Siz indi ADA-da Prorektor vəzifəsini icra edirsiniz, lakin ilk iş təcrübəniz McDermott şirkətində, enerji sektoru ilə bağlı olub. Belə bir fərqli sahələrdən karyera keçən insan kimi, gənclərə nə məsləhət görə bilərsiniz? Karyera baxımından uğur qazanmaq üçün hansı faktorlar önəmlidir?**

İlk iş yerim Səttərxan adına Maşınqayırma zavodunda olub, sonradan həmin zavod bağlandı. Həmin zavodun direktoru mənim qonşum olub, mən isə həmin vaxtı tələbə olmuşam və ingilis dilim yaxşı olub. Bunu nəzərə alaraq, qonşum məni beynəlxalq münasibətlər şöbəsinə işə götürüb. Mən beşinci kurs tələbəsi olanda isə "Əsrin Müqaviləsi" imzalanır və ölkəyə ən nüfuzlu xarici investorlar gəlir. Beləliklə, Xarici Dillər Universitetinin tələbələri həmin ərəfədə dil biliklərinə görə ən tələbatlı kadrlar sayılırdılar. Heç kim ixtisasa baxmırdı, əsas şərt ingilis dilini bilmək idi. Suala keçdikdə isə, mənim cavabım tam dəqiqdir. Mən harada işləmişəmsə hər iş təcrübəmi faydalı görürəm, həm peşəkar təcrübə, həm də insanlar ilə münasibət qurmaq bacarığı baxımından. Mənim bugün bu pilləyə çatmağımda hər işlədiyim yerin bir töhvəsi var. Mən düşünürəm ki, mən çox şanslı insanam, mənim karyeram pillə-pillə qurulub, bir başa uğur olmayıb, mən öz gücüm və təcrübəm ilə gəlib çıxmışam bugünki yerə. Ona görə də mənim gənclərə mesajım odur ki, tələsməsinlər, can atmasınlar ki, universiteti bitirən kimi dərhal yüksək maaşlı və ya yüksək vəzifəli iş tapmalıdırlar. Demək istəyirəm ki, karyeranın ilkin qurma mərhələlərində gənclər belə şeylərə görə narahat olmasınlar, müəyyən yerə gəlib çıxmaq üçün gərəkli bir yolu keçmək lazımdır. Bu yol insanı hazırlayır, çünki birdən-birə gəlib özünə uyğun olmayan, daha yuxarı işə düşəndə, insan ordan daha da tez düşür. Bundan əlavə demək istəyirəm ki, hər bir işdə öyrənmək imkanı var, o artıq insanın özündən asılıdır ki, o həmin imkanları istifadə edir ya yox. "McDermott International" isə Şotlandiyanın sualtı tikinti şirkətidir və neft şirkətlərinin neft çıxartma buruqlarını təmin edir. Səhv etmirəmsə, artıq həmin şirkətin Bakıdakı ofisi bağlanıb, amma vaxtı ilə ən böyük və Azərbaycana ilk gələn xarici şirkətlərdən biri idi.

**Neft şirkətlətinin birində administrativ vəzifədə işlədiyiniz zamanlar nahar zamanı üçün sizə verilən 1 saatı qaça-qaça gedib dərs deməklə keçirirdiniz. Daha sonrasında isə yüksək maaşlı vəzifənizi atıb sırf dərs deməklə məşğul olmağa başladınız. Haradan irəli gəlir bu qədər güclü müəllimlik sevgisi?**

Məncə qızların əksəriyyəti uşaq dövründə müəllim olmaq istəyirlər. Məndə də çox güman ki, bu belə başlamışdı və mənim ilk məktəb müəlliməmin rolu burada çox böyük olub. Həmin müəlliməyə böyük sevgim var idi və məncə bu peşəyə sevgim də həmin dövrdə başladı. Sonra bu maraq məndə çox ciddi bir şəkildə özünü göstərməyə başladı (gülür). Məktəbdən evə gəlib dərslərimi etməyə başlayırdım və onları bitirəndən sonra keçirdim balkonumuza. Mən öz oyuncaqlarımı balkona qoyub onlara şkafın üzərində öyrəndiyim dərsləri yazıb izah etməyə başlayırdım (gülür). Burada ən vacib məsələ odur ki, mən öz dərsimi oxuyurdum ki, öz kuklalarıma izah edim və bunu çox ciddi qəbul edirdim. Havadan asılı olmayaraq, mən öz dərslərimi hər gün onlara izah edirdim və hərdən rəhmətlik atam balkonun qapısını döyürdü və içəri çağırırdı, ki artıq öz "işimi" bitirib dincəlim (gülür). Məndən soruşanda ki, karyeram nə vaxt başlayıb deyirəm ki, mənim karyeram üçüncü sinifdən başlayıb, müəllimliyə artıq o zamandan başlamışam (gülür). Hətta, mənim bacım həkimlik üzrə təhsil alırdı və valideynlərim istəyirdi ki, mən də bu yolu seçim, artıq müəllim yanına da gedirdim. Lakin, mən bir gün anladım ki, həkim olmaq istəmirəm, mən müəllim olmaq istəyirəm və bunu çox dəqiq bilirdim. Valideynlərimə dedim ki, mən imtahanda heç nə yazmayacam, çünki həkim olmaq istəmirəm və anam məni dərhal dəstəklədi və ingilis dili üzrə hazırlığa göndərdi.

**Zaman keçir, ancaq Vəfa xanım elə tələbəlik illərindəki kimi gənc qalır. Nədir bunun arxasında duran əsas səbəb? Sağlam qidalanma, özünə baxım yoxsa yüksək əhval-ruhiyyə?**

İlk öncə komplimentə görə təşəkkür edirəm. Çox maraqlı sualdır. Daim tələbələr ilə olmaq adamı cavan saxlayır, cavanların arasında olmaq çox vacibdir. Əlbəttə, özümə fikir verməyə də çalışıram. Zəmanə də dəyişir, insanlar qidalanmaya fikir verməyə başlayıblar, idmanla məşğul olurlar. Mən də çalışıram imkan olanda belə məqamlara fikir verim. Sözün düzü bəxtim gətirib ki, mən təbiətcə sağlam qidanı sevən insanam, dieta və dəbə görə yox, öz istəyimlə. Və içimdə uşaqlıq var məndə, məncə bu da öz rolunu oynayır.

**O doğrudurmu ki, oğlunuzun məktəbdə bir qızı istədiyini öyrəndikdən sonra qızı tanımaq üçün dərsdən sonra gizlincə oğlunuzu izləmisiniz və həmin zaman siz artıq ADA-da dekan vəzifəsini icra edirdiniz?**

Yox, o yadimda deyil. Bir dəfə oğlumun dalınca düşmüşdüm, bu məqam dəqiq yadımdadır, amma qız ilə bağlı olmağı sözün düzü yadımda deyil. Özü də yadimdadır ki, qızım ilə getmişdik baxaq ki, kiminlə və haradadır. Bu bizim üçün çox həyəcanlı bir təcrübə idi, bütün yolu qızım ilə gülürdük və qızım balaca idi, onun üçün bu çox təəccübləndirici idi, sanki bir oyun idi (gülür).

**Hazırda ADA Universitetində Prorektor vəzifəsini icra edirsiniz. Sizə təklif olunsa ki, bir bazar günü dəniz qırağında uşaqlar kimi rolik sürəsiniz, qəbul edərdinizmi? Axı siz rolik**

**sürməyi çox sevirsiniz...**

Həmin an. Düşünmədən, qəbul edərəm (gülür). Uşaqlıqda rolik sürmək mənim ən xoşladığım məşğuliyyətim idi və həyatin ən yaxşı rolik sürənlərindən biri olmuşam. Sovet vaxtının rolikləri indikilərdən fərqli idi, onları ayağa geyinmək çox çətin bir proses idi (gülür). İndiyənə kimi yadımdadır ki, ilk rolikimi mənə babam hədiyyə etmişdi və o mənim üçün böyük bir sevinc idi, dərhal həyatə düşüb sürməyə başladım (gülür). Sözün düzü hər dəfə özümə deyirəm ki, gərək bir gün rolik də sürüm, lap uşaqlıqdakı kimi. Ümumi də demək istəyərdim ki, bizim uşaqlığımız çox xoşbəxt keçib, sosial mediyasız (gülür).

**İntervyularınızın birində deyirsiniz ki, Azərbaycanda qayıb anlayışını tamamilə yığışdırmaq üçün gərək Amerikadakı kimi tələbələr təhsil haqqlarını özləri ödəsinlər, valideynləri yox. Bunun üçün mütləq təhsil haqqınımı ödəmək lazımdır? Başqa heç cür mümkün deyil?**

Qayıb anlayışını yığışdırmaq üçün gərək tələbənin şüuru buna hazır olsun, tələbə başa düşməlidir ki, o dərsin 75 dəqiqəsini ödəyir. Tələbə anlamalıdır ki, o yatırım edir və həmin yatırımın qarşılığını almalıdır. Həmin halda nə qayıb sistemi, nə də müəllim məcburiyyətinə lüzum olacaq. Əlbəttə ki, insan pulu özü qazanıb təhsilini ödəsə, bu anlayışı aradan qaldırmaq daha rahat və operativ etmək olar. Ən mühüm məqam isə odur ki, bizim cəmiyyət əksər hallarda daha çox nəticəyə yönəmlidir, məsələn diplom almaq. Əslində isə universitet tələbə üçün ancaq diplom və nəticədə əldə olunan iş yox, məhz bilik, savad və təcrübə olmalıdır. Bu halda, qayıb və məcburiyyət anlayışı heç vaxt olmayacaq.

**2015-ci ildə oğlunuz 13 yaşında ikən onu təkbaşına ADA tələbələri ilə birlikdə 10 günlük xarici səfərə göndərmişdiniz. Yanında isə nə siz var idiniz nə də atası. Oğlunuza güvən hələ belə yaşda haradan qaynaqlanır?**

Öz ailəmdən gəlir, çünki mənim ailəm özü də vaxtı ilə mənə güvənib məni İngiltərəyə oxumağa göndərmişdilər. Mən bunu həmişə dəyərləndirmişəm və övladıma da eyni güvəni göstərirəm. Siz daha əvvəl soruşdunuz ki, mən hər zamanmı tələbələri dəstəkləyirəm. Dəstək güvəndən gəlir. Mən tələbəyə güvənib onu dəstəkləyirəm və necə tələbəyə münasibətimi göstərirəmsə eləcə də öz övladıma. Mən ümumiyyətlə münasibətlərin güvənin üzərində qurulmağına inanmaq istəyərəm. Əfsuslar olsun ki, bəzən həyat insanı məyus edir, amma mənim üçün isə güvənsiz münasibət qurmaq çox çətin olur. Qorxu və yoxlama üzərində qurulan münasibəti qəbul edə bilmirəm (gülür). Çox vaxtı buna görə məni qınayırlar, öz ailəm tərkibində belə, deyirlər ki, insanlara çox güvənirəm. Lakin düşünürəm ki, gənc nəsli sərbəst buraxmaq lazımdır, onlar dünyanı görməlidirlər və bütün bunlar hamısı əlbəttə ki nəzarət altında (hiss olunmayacaq səviyyədə). Əslində uşaq biləndə ki, o, nəzarət altındadır, başqa sözlə desək görəndə ki ona valideynləri tərəfindən diqqət və qayğı göstərilir, onun özünün də xoşuna gəlir. Mən burada heç bir mənfi məqam görmürəm, övladımı tanış insanlar ilə göndərmişdim və hər şeydən tam məlumatlı idim. Əlavə olaraq qeyd etmək istərdim ki, bu güvəni oğlum öz hərəkətləri və bizdə yaratdığı hörmət ilə qazanıb. Oğlum məni heç vaxt məyus etməyib və ümid edirəm ki, bundan sonra da etməz (gülür).

> **"Əslində isə universitet tələbə üçün ancaq diplom və nəticədə əldə olunan iş yox, məhz bilik, savad və təcrübə olmalıdır."**

**Cənab Prezident və Birinci Vitse-Prezidentimizin qarşısında, özü də onların övladlarının məzun günündə çıxış etmək necə hiss idi?**

Mənim ən xoşbəxt günlərimdən biri idi və əlbəttə ki, həyacan var idi. Amma, eyni zamanda sevinc və qürur hissləri də yaşayırdım, çünki o an mənə nəsib oldu. Bu böyük bir məsuliyyət idi və həyatımda ilk dəfə öz çıxışımı məşq edirdim. Nəzərə alsaq ki, mənim üçün öncədən hazırlanmış mətni təqdim etmək daha çətindir, buna görə çox həyacanlı idim. Həmin çıxış həyatımda ən çətin çıxışlardan biri idi.

**Tanrını güldürmək istəyirsənsə, ona öz planlarından danış. Vəfa xanımın bəs necə, gələcək ilə bağlı planları varmı?**

Konkret bir planım yoxdur, lakin bəzi istəklərim var, tələbələrə və gənclərə dair, və bu istiqamət üzrə çalışıram. Tədrisin bir hissəsi daim yaradıcılıq ilə bağlıdır və yeniliklər gətirməlidir. Mənim məqsədim odur ki, fəaliyyətim bu istiqamətdə daha da genişlənsin. Mən balaca uşaqları çox sevirəm və onlarla daha çox vaxt keçirtmək istəyirəm. Odur ki, bu cür sərbəst və kreativ formatda onlar ilə müzakirələr aparmaq, uşaqların maraqlı dünyalarını başa düşüb kəşf edib araşdırmaq. Lakin, bu mənim hal hazırda ki yox, uzun müddətli bir planımdır (gülür).

*Sualları hazırladı və müsahibəni götürdü:*

*El Presidente*



Adım Samirə Şərifova, Şəmkir rayonundanam və ADA universitetinin Hüquq fakültəsinin tələbəsiyəm. . Hal hazırda universitetdə ilk tədris ilindəyəm və ingilis dilinin tətbiqi proqramı üzrə təhsil alıram. İbtidai sinifdən bəri həmişə təhsilə marağım olub, bir çox bilik yarışlarında və intellektual oyunlarda məktəbimi və rayonumu təmsil etmişəm, çoxsaylı sertifikatlar əldə etmişəm. 2019-cu ildə ictimai işlərdə iştirakıma görə Şəmkirin Gənc Lider mükafatına layiq görüldüm. 9-cu sinifi isə qırmızı şəhadətnamə ilə bitirdim. 10-cu və 11-ci siniflərdə 3-cü ixtisas qrupu üzrə hazırlaşmağa başladım. 2010-cu ildə Respublika Konstitusiya Olimpiyadasında 3-cü yerə layiq görüldüm. Buraxılış imtahanından yüksək nəticə əldə edərək məktəbi fərqlənmə attestatı ilə bitirdim. Buraxılış və blok imtahanlarından ümumilikdə 620 bal topladım. İxtisas seçimində ilk 3 yerə ADA universitetinin Hüquq, Dövlət və İctimai Münasibətlər və yeni əsası qoyulmuş Kommunikasiya və Rəqəmsal Media ixtisaslarını kodlaşdırdım. ADA'lı olmaq 9-cu sinifdən bəri xəyalım idi. Xüsusi bir peşə düşünmürdüm gələcək karyeram üçün, sadəcə fakültəsindən asılı olmayaraq ADA Universitetinin keyfiyyətli təhsil verdiyini və mükəmməl kadrlar yetişdirdiyini bildiyim üçün oranı seçtim. Hüquqşünaslıq ixtisasını ilk yerə kodlaşdırmamın səbəbi isə həmişə hər yerdə ədalətin olmasını istəməyimdir. Həmçinin, Azərbaycanın savadlı hüquqşünaslara ehtiyacı olduğunu düşünürəm. Nəticə olaraq, mən arzuma çatdım, burdayam və artıq ADA'lıyam. Məncə biz ADA universitetinin tələbələri hər birimiz belə yüksək keyfiyyətli təhsil ala bildiyimiz üçün çox şanslıyıq.

# QR-Codu scan et və kitab əldə et!

**QR-Codu scan edənlər Mustafa Kamal Atatürk-ün özünün yazdığı *"Nutuk"* kitabının PDF formatını əldə edəcəklər.**


İdeya müəllifi: El Presidente
Dizayner: Nathan Kamanga
Redaktor: Fidan Namazova
Fullstack developer: Niyazi Babayev
Vergi məsləhətçisi: Suğra Əsgərova
PR komandası: Alejandra Garcia Duran
Aynura Abbasova
Toğrul Tağıyev
Cavid Ələkbərov




Ey Türk Gençliği!
Birinci vazifen, Türk istiklâlini, Türk Cumhuriyetini, ilelebet, muhafaza ve müdafaa etmektir.
Mevcudiyetinin ve istikbalinin yegâne temeli budur. Bu temel, senin, en kıymetli hazinendir. İstikbalde dahi, seni bu hazineden mahrum etmek isteyecek, dahilî ve haricî bedhahların olacaktır. Bir gün, İstiklâl ve Cumhuriyeti müdafaa mecburiyetine düşersen, vazifeye atılmak için, içinde bulunacağın vaziyetin imkân ve şerâitini düşünmeyeceksin! Bu imkân ve şerâit, çok nâmüsait bir mahiyette tezahür edebilir. İstiklâl ve Cumhuriyetine kastedecek düşmanlar, bütün dünyada emsali görülmemiş bir galibiyetin mümessili olabilirler. Cebren ve hile ile aziz vatanın, bütün kaleleri zaptedilmiş, bütün tersanelerine girilmiş, bütün orduları dağıtılmış ve memleketin her köşesi bilfiil işgal edilmiş olabilir. Bütün bu şerâitten daha elîm ve daha vahim olmak üzere, memleketin dahilinde, iktidara sahip olanlar gaflet ve dalâlet ve hattâ hıyanet içinde bulunabilirler. Hattâ bu iktidar sahipleri şahsî menfaatlerini, müstevlilerin siyasi emelleriyle tevhit edebilirler. Millet, fakr ü zaruret içinde harap ve bîtap düşmüş olabilir. Ey Türk istikbalinin evlâdı! İşte, bu ahval ve şerâit içinde dahi, vazifen; Türk İstiklâl ve Cumhuriyetini kurtarmaktır! Muhtaç olduğun kudret, damarlarındaki asil kanda mevcuttur!

Mustafa Kemal Atatürk